Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət büdcəsindən maliyyələşir. 2023-cü il üzrə dövlət büdcəsindən daxilolma 93,1 milyon manat təşkil etmişdir. Bu vəsait Nazirliyin Aparatı üzrə saxlanma xərcləri, Nazirlik və tabeli qurumları tərəfindən həyata keçirilən layihələr və beynəlxalq tədbirlər üçün nəzərdə tutulmuşdur. 14,4 milyon manat daxilolma isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş "Universal telekommunikasiya xidmətlərinin göstərilməsi üçün operatora, provayderə lazım olan vəsaitin ayrılması və bu məqsədlə sərf olunan vəsaitin geri qaytarılması (kompensasiya) Qaydaları"na əsasən formalaşır və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 31.5-ci maddəsində nəzərdə tutulmuş xidmətlərin göstərilməsində istifadə edilir.